*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journa lof History and Idea*
*ISSN: 2148-2292*
*10 (2) 2023*
https://doi.org/10.46868/atdd.2023.

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received: 07.09.2023*
*Kabul tarihi |Accepted: 12.10.2023*
*Yayın tarihi |Published: 10.11.2023*

**Mais Əmrahov**

https://orcid.org/ 0000-0003-2504-3034
*Professor, Azerbaijan National Academy of Sciences A.A. Head of the History Department of the History Institute of the Republic of Azerbaijan named after Bakikhanov, Azerbaijan, emrahov48@mail.ru*

*Atıf Künyesi | Citation Info*
Əmrahov, M. (2023). 44 günlük II Qarabağ-Vətən müharibəsində Türkiyə. *Akademik Tarih ve Düşünce Dergisi, Türkiye-Azerbaycan İlişkilerinin 100. Yılı Özel Sayısı, 10* (2), 492-515.

# 44 günlük II Qarabağ-Vətən müharibəsində Türkiyə

**Xülasə**

*Məqalədə Azərbaycan-Türkiyə əlaqələrinin tarixinə toxunularaq Azərbaycan müstəqil-liyini bərpa etdikdən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına səfərləri, iki qardaş ölkə arasında yaranmış hərbi, siyasi, diplomatik və iqtisadi müna-sibətlər faktlarla göstərilmişdir. Qeyd olunur ki, 2020-ci il sentyabrın 27-də başlanan və noyabrın 10-da başa çatan 44 günlük II Qarabağ - Vətən müharibəsində qələbənin qazanılmasında qardaş Türkiyənin böyük və əvəzolunmaz xidməti vardır. Ermənistanın Azərbaycan Respublikası ərazilərinə yeni hücumu bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bildirən Türkiyə Cümhuriyyəti Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələrdəki səhifəsində türk millətinin hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olduğunu qeyd etdi. Materialda 2020-ci il sentyabrın 27-də başlanan II Qarabağ-Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin Türkiyə Cümhuriyyərinin aparıcı televiziya kanalları və müxbirlərinə müsahibələrinin məzmunu açıqlanmış, Anadolu, İHA, DHA agentlikləri, TRT HABER, TÜRK HABER, A HABER, NTV və s. telekanallarının, o cümlədən ölkənin aparıcı qəzetləri və xəbər portallarının Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən başlayaraq həyata keçirdiyi növbəti hərbi təxribatlar və hərbi qarşıdurma, cəbhə bölgəsindəki vəziyyət barədə türkdilli tamaşaçıları və oxucuları məlumatlandırdığı, 2020-ci il dekabrın 10-da Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsinə həsr olunmuş "Zəfər Paradı"nda ölkələrimiz arasındakı qardaşlığın rəmzinin bariz nümunəsi kimi Vətən müharibəsində şəhid olan azərbaycanlıların sayı qədər türk əsgərlərinin də iştirakı qeyd edilmişdir.*

***Açar sözlər:*** *Türkiyə-Azərbaycan əlaqələri, Azərbaycan-Ermənistan münaqişəsi, II Qarabağ müharibəsi, Türkiyə Cümhuriyyətinin dəstəyi, Şuşa Bəyannaməsi*

# Turkey in the 44-day Karabakh-Homeland War II

***Abstract***

*Touching on the history of Azerbaijan-Turkey relations, the visits of the President of the Republic of Turkey Recep Tayyip Erdogan to the Republic of Azerbaijan after the restoration of Azerbaijan's independence, the military, political, diplomatic and economic relations between the two brotherly countries are shown with facts. It is noted that brotherly Turkey has a great and irreplaceable service in winning the victory in the 44-day Karabakh-Patriotic War II, which started on September 27, 2020 and ended on November 10. The President of the Republic of Turkey, Recep Tayyip Erdogan, stated that the new attack of Armenia on the territories of the Republic of Azerbaijan is the biggest threat to peace and stability in the region. On his page on social networks, the Turkish nation stands by its Azerbaijani brothers with all its capabilities, as always. In the material, the content of the interviews of the President of the Republic of Azerbaijan, Commander-in-Chief of the Armed Forces of the Republic of Azerbaijan Ilham Aliyev to the leading television channels and reporters of the Republic of Turkey during the Second Karabakh-Homeland War, which began on September 27, 2020, Anadolu, IHA, DHA agencies, TRT HABER, TURKISH NEWS, A NEWS, NTV, etc. TV channels, including the country's leading newspapers and news portals, informed Turkish-speaking viewers and readers about the next military provocations and military confrontations carried out by the Armenian armed forces starting from September 27, and the situation in the frontline, on December 10, 2020, in Azerbaijan. As a clear example of the symbol of brotherhood between our countries, the participation of Turkish soldiers, as many as the number of Azerbaijanis who were martyred in the Patriotic War, was noted in the "Victory Parade" dedicated to the great Victory in the Patriotic War.*

***Keywords:*** *Turkish-Azerbaijani relations, Azerbaijani-Armenian conflict, Karabakh war II, support of the Republic of Turkey, Shusha Declaration*

## Giriş

Türkiyə-Azərbaycan əlaqələrinin tarixi kökləri, onların müttəfiqlik səviyyəsinə yüksəlməsi qədimlərə gedib çıxır. Bu prosesdə xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması, eyni genetik-mənəvi başlanğıc əsas faktor olmuşdur. 1918-ci il mayın 28-də yaradılmış və şərqin ilk müsəlman-türk dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici hücumlardan müdafiəsində və möhkəmlənməsində Osmanlı dövləti misilsiz köməklik göstərmişdir. Osmanlı hökuməti I Dünya müharibəsindən sonra ağır şərtlər altına düşməsinə baxmayaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru paşanın komandanlığı ilə hərbi qüvvələrini Azərbaycana köməyə göndərmiş, onun rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan korpusu Gəncə, Yevlax, Göyçay, Kürdəmir və digər bölgələrdə aparılan ağır döyüşlərdə eser-

menşevik, daşnak qoşunlarını darmadağın edərək sentyabrın 15-də Bakıya daxil olmuşdu. Bakının "Sentrokaspi diktaturası"ndan azad olunduğu gün tariximizin ən şanlı səhifələrindəndir.

Erməni faktoru Türkiyə-Azərbaycan münasibətlərinin mühüm hissəsini təşkil edir. Mövzumuzun məzmununu təşkil edən dövrdə bu siyasi quruluşun əsasları qoyulmuşdur. XIX əsrin ikinci yarısından başlayaraq erməni xalqı "Böyük Ermənistan" yaratmaq arzusunu həyata keçirmək üçün bütün vasitələrə əl atıb. Birinci Dünya Müharibəsi, Anadolu və Qafqaz kimi strateji bölgələrdə baş verən hadisələrdən istifadə edən erməni quldur dəstələri bu coğrafiyalarda qırğınlar törətməkdən çəkinmədilər. Qeyri-ermənilərə qarşı bu qırğınları Qərb imperialist dövlətlərinin dəstəklədiyi Daşnak Partiyası həyata keçirib. Daşnakların hakimiyyəti altında olan Ermənistan Türkiyədə qurulmaqda olan yeni rejim və Sovet Azərbaycanı üçün böyük təhlükə yaradırdı. Həm Azərbaycan Sovet Hökuməti, həm də Türkiyə Böyük Millət Məclisi Hökuməti üçün Erməni məsələsi birinci dərəcəli siyasi əhəmiyyət kəsb edirdi. Bu problemi tez bir zamanda həll etmək üçün Azərbaycan Sovet hökumətinin irəli sürdüyü Ermənistanın sovetləşdirilməsi təklifi Qafqazın sovetləşdirilməsində maraqlı olan TBMM hökumətinin siyasətinə uyğun idi. Ona görə də Ankara daşnaklara qarşı mübarizədə Azərbaycan Sovet hökumətini dəstəkləyirdi (Korkmaz, 2023).

Sovetlər dönəmində Azərbaycanla Türkiyə arasındakı əlaqələrin müxtəlif yollarla pozulmasına çalışan SSRİ-nin rəhbər dairələrinin erməni-bolşevik dəstəsinin cəhdləri özünü doğrultmadı. Xüsusilə Heydər Əliyevin Azərbaycan partiya təşkilatına rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına xüsusi diqqət yetirildi. Ümummilli liderin ikinci dəfə hakimiyyətə qayıdışında sonra Ulu öndər Mustafa Kamal Atatürkün "*Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir*", Ümummilli lider Heydər Əliyevin "*Bir millət, iki dövlət*" fəlsəfəsi ilə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə Cümhuriyyəti ilə münasibətlərdə yeni mərhələ başladı.

"*...xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində irəliyə gedərək, inkişaf etməyə başladı*"(http://anl.az/el/h/hf_mdateka.pdf).

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra onun müstəqilliyini ilk tanıyan Türkiyə Cümhuriyyəti dövləti oldu və iqtisadi və ticarət əlaqələrinin inkişafı üçün imkanlar yarandı. Türkiyə Cümhuriyyəti Azərbaycan Respublikasında 1991-ci il mayın 25-də Konsulluq və 1992-ci il yanvarın 14-də böyük elçilik acdı. 1993-cü ilin yanvar ayında İstanbul şəhərində Baş Konsulluql fəaliyyətə başladı. Müasir dövrdə Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında əlaqələr siyasi, iqtisadi-ticari, humanitar, hərbi və s. sahələrdə

çox uğurla inkişaf etməkdədir. İki dövlətin rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamaqda və müsbət nəticələr verməkdədir.

## 1.Müstəqillik İllərində Türkiyə Cümhuriyyəti İlə Siyasi, İqtisadi-Ticari, Qhərbi Əlaqələrin İnkişafı

### 1.1.Siyasi əlaqələr

Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının xarici siyasətində mühüm istiqamətlərdən biri qonşu dövlətlərlə münasibətlər olmuşdur. Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi ilə Azərbaycan – Türkiyə münasibətlərində yeni mərhələ başladı. Prezident Süleyman Dəmirəl 1994-cü ilin yanvar ayında Prezident Heydər Əliyevə məktub göndərərək Türkiyəyə rəsmi səfərə dəvət etdi. 1994-cü il fevralın 8-11-də Prezident Heydər Əliyev Türkiyəyə dördgünlük rəsmi səfər etdi (Əliyev, 1994). Prezident Süleyman Dəmirəl və digər rəsmi şəxslərlə keçirilən danışıqlarda iki ölkə arasında münasibətlərin inkişaf perspektivləri, regional problemlər, Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü və b. məsələlər müzakirə edildi. Fevralın 9-da Türkiyə Böyük Millət Məclisindəki nitqində Heydər Əliyev iki xalq arasında əlaqələrin tarixindən bəhs edərək bildirdi ki, “..Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir... Əsrlər boyu xalqlarımız bir olmuş, çiyin-çiyinə vermişlər... Bu əlaqələr bir xalqdan, bir kökdən gələn xalqların əlaqələridir” (Əliyev, 1994). Fevralın 9-da iki ölkə arasında əməkdaşlığa dair 16 sənəd imzalandı (Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır, 1994). 19 maddədən ibarət dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilədə tərəflərin çoxlu sahələrdə əməkdaşlığı nəzərdə tutulmuşdu (Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, 2008).1995-ci il aprelin 12-də Türkiyənin Baş naziri Tansu Çillərin rəhbərliyi altında nümayəndə heyətinin Azərbaycana səfəri, Prezident Heydər Əliyev ilə görüşdə əməkdaşlıq məsələləri geniş müzakirə edilməsi (Türkiyə Cümhuriyyətinin Baş Naziri xanım Tansu Çillərin Azərbaycana işgüzar səfəri, 12 aprel 1995). iki ölkə arasında həllini gözləyən məsələləri müzakirə etmək üçün 1995-ci il iyulun 10-12-də Tansu Çillər yenidən Azərbaycana rəsmi səfəri (Türkiyə Cümhuriyyətinin Baş Naziri Tansu Çillərin Azərbaycana rəsmi səfəri, 10-12 iyul 1995). səfər zamanı Ermənistanın Azərbaycana təcavüzü və nəticələri, iki ölkə arasında iqtisadi əməkdaşlıq və b. məsələlər müzakirə edilməsi ölkələr arasında əlaqələrin inkişafında mühüm rol oynadı.

### 1.2.Hüquq-müqavilə bazasının genişlənməsi

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında ikitərəfli hüquq-müqavilə bazasının genişlənməsi nəzarətdə saxlanılmışdır. 2018-ci il aprelin 25-də Azərbaycan-Türkiyə

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən

"*Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasının Protokolu", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ətraf mühitin qorunması sahəsində əməkdaşlığa dair Sazişin tətbiqi ilə bağlı ikiillik (2018-2019) İş Proqramı", "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi arasında elektron imza sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu","Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında preferensial ticarət sazişi üzrə müzakirələrə dair Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair Protokol*" (https://president.az/az/articles/view/35963). ümumilikdə, Türkiyə və Azərbaycan arasında münasibətlərin müxtəlif sahələri əhatə edən 25o-dən çox sənəd imzalanmışdır.

**1.3.İqtisadi əlaqələr**

"Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan – Türkiyə münasibətlərinin yeni səviyyəyə qalxmasında mühüm rol oynadı. İki ölkə arasında münasibətlərdə müzakirə edilən başlıca məsələlər Azərbaycan neftindən Türkiyəyə verilən payın artırılması və Türkiyə – Ermənistan münasibətləri idi.

1995-ci il noyabrın 12-də parlament seçkiləri keçirildikdən və müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən az sonra, dekabrın 7-9-da Azərbaycana rəsmi səfər edən Prezident Süleyman Dəmirəl və Prezident Heydər Əliyev arasında keçirilən danışıqlarda ikitərəfli münasibətlərin genişləndirilməsi, regional və beynəlxalq məsələlər, Dağlıq Qarabağ münaqişəsinin həlli, Bakı-Ceyhan neft boru kəməri və Türkiyə ilə Azərbaycan arasında ticarətin həcminin artırılması məsələlərini müzakirə edildi (Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi (sonra-ARXİNA). 25.06.1993-21.04.1998. Qovluq №11, s.87-88). Neftin ixracı marşrutlarının seçilməsi bəyənildi, iqtisadi, siyasi, nəqliyyat sahəsində əməkdaşlığın dərinləşdirilməsi barədə razılığa gəlindi. Azərbaycan və Türkiyə ərazisində dəmiryolu xəttinin tikintisinin, gələcəkdə Orta Asiya respublikaları ilə birləşdirilməsinin əhəmiyyəti qeyd olundu. Danışıqların yekununda imzalanan birgə bəyanatda qarşılıqlı münasibətlərin mövcud vəziyyəti, inkişaf istiqamətləri və perspektivləri əksini tapmışdı (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəlin birgə bəyanatı, 8 dekabr 1995). Qarşılıqlı münasibətlərdə növbəti addım 1997-ci il mayın 5-8-də Azərbaycan

Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə ikinci rəsmi səfəri oldu (Azərbaycan – Türkiyə: dostluq, qardaşlıq, strateji əməkdaşlıq, 1997; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə ikinci rəsmi səfəri, 5-8 may 1997).Onların arasında 16 bənddən ibarət olan iki ölkə arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə xüsusi yer tuturdu ( Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə, 5 may 1997). Səfər zamanı Ankarada Azərbaycan səfirliyinin yeni binasının təməlqoyma mərasimi oldu.

Azərbaycan tərəfinin Bakı – Tbilisi – Ceyhan neft boru kəməri üzərində dayanması Ankarada petrol zəfəri kimi qiymətləndirildi (Türkiye Gazetesi, 9 Eylül 1997). Türkiyə tərəfi Ermənistan ilə sərhədlərini açmamaq barədə qərarın qüvvədə qaldığını, iki ölkə arasında münasibətlərin normallaşmasının münaqişənin həlli istiqamətində təsirli bir nəticə olduqdan sonra mümkün ola biləcəyini bildirdi (Sabah Gazetesi, 24 Ekim 1997). Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəmərinə dair ilk rəsmi sənəd 1998-ci il mayın 15-də Türkiyə, Azərbaycan və Gürcüstan nümayəndələri imzaladılar (Yeni Şafak Gazetesi, 17 Mayıs1998). Həmin il oktyabrın 28-31-də Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin qurulmasının 75 illiyi münasibəti ilə keçirilən toplantıda iştirak etmək məqsədilə Türkiyədə səfərdə olarkən Xəzər neftini dünya bazarına çıxaracaq Ankara bəyannaməsi və Türkmənistan qazını Türkiyəyə gətirəcək kəmərin tikintisi barədə saziş bağlandı (Hürriyet Gazetesi, 30 Ekim1998). Xəzər dənizinin Azərbaycan sektorundakı ilkin nefti dünya bazarlarına çıxaran Bakı – Supsa boru kəməri Heydər Əliyev və Süleyman Dəmirəl tərəfindən 1999-cu ilin aprel ayında açıldı.

Süleyman Dəmirəlin 1999-cu il oktyabrın 18-də Bakıya işgüzar səfərində (Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin Azərbaycan Respublikasına işgüzar səfəri, 18-19 oktyabr 1999). keçirilən danışıqlarda iki ölkə arasında siyasi, iqtisadi, hərbi əməkdaşlıq, Bakı – Tbilisi – Ceyhan neft boru kəmərinin tikintisi məsələləri müzakirə edildi. Dövlət başçıları Bakı – Tbilisi – Ceyhan neft boru kəmərinin tikintisinə dair sənədin İstanbulda keçiriləcək ATƏT-in zirvə görüşü zamanı imzalanması barədə razılığa gəldilər.

İstanbulda keçirilən ATƏT-in zirvə görüşü zamanı (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə doqquzuncu işgüzar səfəri, 17-19 noyabr 1999).noyabrın 18-də Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri barədə sənədi Çırağan sarayında ABŞ Prezidenti Bill Klintonun iştirakı ilə Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri imzaladılar (T.C.Resmi Gazete, 10 Eylül 2000). Azərbaycan, Türkiyə, Gürcüstan və Türkmənistan prezidentləri Xəzər dənizindən keçən boru kəmərinin prinsiplərinə dair hökumətlərarası bəyannaməni qəbul etdilər. 2000-ci il oktyabrın 17-də Bakıda Azərbaycan ilə Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinə dair ev sahibi ölkə sazişi (Akşam Gazetesi, 18

Ekim 2000). Gürcüstanla saziş isə oktyabrın 18-də Tbilisidə imzalandı. Bir gün sonra, oktyabrın 19-da isə Ankarada Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinə dair ev sahibi və təminatçı sazişləri imzalandı (Hürriyet Gazetesi, 20 Ekim 2000). Türkiyədə 2002-ci il noyabrın 3-də keçirilən parlament seçkilərində qalib gələn Ədalət və İnkişaf Partiyasının sədri, Baş nazir Rəcəb Tayyib Ərdoğanın başçılıq etdiyi nümayəndə heyətinin 2003-cü il yanvarın 7-8-də Azərbaycana səfəri iki ölkə arasında münasibətlərdə yeni bir mərhələnin başlanğıcını qoydu (Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi, 2003). Özü ilə 150 nəfər türk iş adamını da gətirən Baş nazir səfər başlayarkən Azərbaycanla bağlı o zamanadək yürüdülən siyasəti tamamilə dəyişdirmək, bütün türk dövlətləri ilə daha intensiv əlaqələr qurmaq əzmində olduğunu bildirdi.

2003-cü ilin ortalarından etibarən Türkiyəni narahat edən məsələlərdən biri səhəti pozulmuş Heydər Əliyevdən sonra Azərbaycanda kimin ölkə rəhbəri seçiləcəyi idi (Akşam Gazetesi, 19 Haziran 2003). 2003-cü ildə prezident seçilən İlham Əliyevin Türkiyə Cümhuriyyətinə 30-dan artıq rəsmi və işgüzar səfəri, Türkiyə Cümhuriyyətindən isə prezidentlər səviyyəsində Azərbaycana 15-dən artıq səfər olmuşdur (https://ankara.mfa.gov.az/az/content/97/ikiterefli-siyasi-elaqeler). Azərbaycan və Türkiyə prezidentlərinin 2005-ci il iyunun 30-da Bakıda imzaladıqları birgə kommünikedə təhlükəsizlik, ticarət-iqtisadi, elmi-texniki, turizm və b. sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd edilirdi (Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi, 2005).Sənəddə Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyünə və suverenliyinə hörmət edilməsinin zəruriliyi yazılırdı. Bu mövqe Prezident Əhməd Necdət Sezərin 2006-cı il aprelin 4-5-də Azərbaycana səfəri zamanı bir daha vurğulandı (Əliyev İ.H. Türkiyə Prezidenti Əhməd Necdət Sezərin Azərbaycana rəsmi səfər). Münasibətlərin daha da inkişaf etdirilməsi və strateji əməkdaşlıq şurasının qurulması məsələləri Prezident İlham Əliyevin 2010-cu il sentyabrın 16-da Türkiyəyə səfəri zamanı Prezident Abdullah Gül və Baş nazir Rəcəb Tayyib Ərdoğanla danışıqlarında müzakirə edildi. Səfərin yekununda Azərbaycan və Türkiyə arasında strateji əməkdaşlıq şurasının qurulması haqqında bəyannamə imzalandı (https://president.az/articles/733).Bundan sonra münasibətlər daha da dərinləşdi. Prezident İlham Əliyevin 2011-ci il oktyabrın 25-də Türkiyəyə səfəri zamanı Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının birinci iclası keçirildi, müxtəlif sahələrdə əməkdaşlığı nəzərdə tutan sənədlər imzalandı (https://president.az/articles/3959). Qarşılıqlı münasibətlər 2016-cı ilin martında keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 5-ci iclasında və digər danışıqlarda, (https://ankara. mfa.gov. az/az/content/98/qarsiliqli-seferler). Prezident Rəcəb Tayyib Ərdoğanın Bakıda həmin il aprelin 25-26-də təşkil edilən BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda, 2017-ci il

oktyabrın 30-31-də Bakı-Tbilisi-Qars dəmiryolunun açılışında, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasında, (Əliyev İ.H. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı mərasimində iştirak). 2018-ci il aprelin 24-25-də Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasında iştirak məqsədilə Ankaraya rəsmi səfəri zamanı möhkəmləndirildi (Əliyev İ.H. Sənədlərin imzalanması mərasimi). Prezident Rəcəb Tayyib Ərdoğanın 2018-ci il iyulun 10-da Azərbaycana səfər etməsi və Bakının daşnak-bolşevik qüvvələrindən azad edilməsinin 100 illiyi ilə əlaqədar olaraq həmin ilin sentyabrında keçirilən bayram tədbirində iştirakı münasibətlərdə mühüm rol oynadı (https://president.az/articles/29993). Türkiyə dövləti Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllində birmənalı olaraq Azərbaycanın haqq işini və beynəlxalq normaları müdafiə edirdi. Birgə əməkdaşlıq və təşəbbüs ilə inşası davam etdirilən, artıq XXI əsrin layihəsi adlandırılan Cənub Qaz Dəhlizinin əsas hissəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəməri layihəsinin reallaşması Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında səmimi dostluq və faydalı tərəfdaşlığının növbəti məhsuludur. Bu layihələr iki ölkənin regional qüvvəsini artıraraq qlobal mövqelərini möhkəmləndirməyə xidmət edir.

### 1.4.Hərbi sahədə əməkdaşlıq

*Azərbaycan Respublikasının hərbi sahədə ən mühüm tərəfdaşı qardaş Türkiyə Cümhuriyyətidir*. Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında hərbi sahədə əməkdaşlıq yalnız Azərbaycan Respublikası Silahlı Qüvvələrinin gücləndirilməsi baxımından deyil, ümumilikdə bölgədə sülh və təhlükəsizliyin təmini istiqamətində də mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasındakı hərbi-texniki sahədə əməkdaşlıq ölkələr arasında 9 fevral 1994-cü il tarixdə imzalanmış "*Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə*"*nin* və *"Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol*", həmçinin 16 avqust 2010-cu ildə imzalanmış "*Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə*" ilə tənzimlənirdi (Hərbi and qəzeti, 15 noyabr). 2021, 2016-cı ilin aprel döyüşləri təsdiqlədi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir (https://mod.gov. az/az/pre/21115.html). Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında hərbi əlaqələrin inkişafında və Azərbaycan ordusunun NATO standartlarına uyğun olaraq qurulmasında beynəlxalq müdafiə sənayesi sərgilərinin təşkili və birgə hərbi təlimlər xüsusi əhəmiyyət kəsb edir. Bakıda iki dövlət – Türkiyə və Azərbaycan arasında keçirilən 2014-cü ildə "ADEX-2014", 2016-cı ildə "ADEX-2016", "TurAz Qartali-2017", 2018-ci ildə

"ADEX-2018", 2019-cu ildə "İDEF-2019" sərgilərinin təşkili hər iki ölkə arasında hərbi-texniki əməkdaşlığın inkişafına təkan vermişdir.

Bu taktiki təlimlər təsdiqlədi ki, azərbaycanlı pilotlar yüksək pilotaj məharətinə malikdirlər. Belə təlimlər Hərbi Hava Qüvvələrinin, Azərbaycan Ordusunun döyüş hazırlığının göstəricisi kimi qürurvericidir və özlüyündə ordu quruculuğunun səviyyəsini ifadə edir. Bakıda keçirilən "Dəniz Kuboku-2017" yarışı da hərbi yönümlü beynəlxalq tədbir kimi tarixləşdi. İstər bağlanış mərasimində iştirakçı dövlətlərin rəsmilərinin, istərsə də beynəlxalq müşahidəçilərin təəssüratları Azərbaycanda Hərbi Dəniz Qüvvələrinin NATO standartlarına cavab verə biləcək səviyyədə kifayət qədər geniş imkanlara, potensiala malik olduğunu təsdiqlədi.

Hərbi əlaqələrin inkişafında və Azərbaycan Ordusunun güclənməsində, eyni zamanda bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasında "EFES", "Anadolu Ankası", "Qış Təlimi", "Anadolu Ulduzu", "Erciyes-2019", "Anadolu Qartalı", "Mustafa Kamal Atatürk", Sarsılmaz Qardaşlıq", "TurAz Qartalı-2019", TurAz Qartalı-2020" təlimləri xüsusi rol oynamışdır (Hərbi and qəzeti, 15 noyabr 2021).

**1.5.Ərazi bütövlüyünün müdafiəsi**

Türkiyə Cümhuriyyəti Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü hər zaman müdafiə edir və iki ölkə arasında beynəlxalq arenada qarşılıqlı dəstək ənənəsi davam etdirilir. Qarşılıqlı etibar və qardaşlığa əsaslanan çoxtərəfli əlaqələrin daha da dərinləşdirilməsi məqsədilə ölkələrimiz BMT başda olmaqla bütün beynəlxalq təşkilatlar çərçivəsində iki ölkənin və regionun rifahı naminə yaxından əməkdaşlıq edir. Türkiyə 1995-ci ilin aprel ayında ABŞ-ın təzyiqləri altında Ermənistan ilə hava sərhədini açdı. Hava sərhədinin açılması Ermənistanı yumşaltmadı, işğal etdiyi Azərbaycan ərazilərini boşaltmadı, əksinə münaqişənin həllinə dair mövqeyini daha da sərtləşdirdi.

Azərbaycan-Türkiyə birliyinin bariz nümunələrindən biri də 2016-cı ilin Tovuz döyüşləridir. 2016-cı il iyul ayının 12-də günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutmağa başladı. Nəticədə Azərbaycanın 12 hərbçisi və 1 dinc sakini şəhid oldu, 4 hərbçi yaralandı. Münaqişənin həlli məqsədilə yaradılan ATƏT-in Minsk qrupu susanda Türkiyə öz mövqeyini ortaya qoyaraq Azərbaycanın yanında olduğunu bəyan etdi. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında dost və qardaş Azərbaycana qarşı Ermənistan tərəfindən edilən hücumları, hücumun Dağlıq Qarabağda deyil, iki dövlət arasındakı sərhədlərdə ağır silahlarla həyata keçirilməsini şiddətlə pislədi, bu hadisənin Azərbaycana qəsdən edilən hücum olduğunu bildirərək Türkiyənin Azərbaycanın haqqına, hüququna, torpaqlarına qarşı hər cür hücumun

qarşısının alınmasında tərəddüd etməyəcəklərini bəyan etdi. Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın "*Xocalıda bütün dünyanın gözü qarşısında soyqırımı törədən, Dağlıq Qarabağı işğal edən Ermənistana qarşı bütün imkanlarımızla Azərbaycanın, azərbaycanlı silahlı yoldaşlarımızın sonunadək yanındayıq. Azərbaycan yalnız deyil. Azərbaycanda olmaqdan onur və qürur duyuruq*" (https://goyezen.az/tehsil/5171-turkiye-ve-azerbaycanin-qardasligi-ebedidir.html). deməsi həm də dünyaya bir mesaj idi.

**2. 44 günlük II Qarabağ-Vətən müharibəsində Türkiyə**

44 günlük II Qarabağ-Vətən müharibəsi kimin kim olduğunu ortaya qoydu, ədalət müdafiəçiləri ilə qərəzkarların, beynəlxalq hüquqdan çox dini təəssübkeşliyi "bayraq" edənlərin cəbhəsi müəyyənləşdi. Müharibənin ilk dəqiqələrindən səssiz qalmağa üstünlük verib, "nə şiş yansın, nə də kabab" deyiminə uyğun olaraq tərəflərdən heç birini incik salmamaq üçün səsləndirilən çağırışlar eşidildi. İllərlə dost, qardaş dediyimiz ölkələrin bir çoxunun düşmən qarşısında acizliyinin, qorxaqlığının şahidi olmaq Azərbaycan xalqını çox incitdi, amma ummadığımız yerdən aldığımız dəstəklər gücümüzə güc qatdı, dost, qardaş ölkələrin bir çoxu etimadı yüksək səviyyədə doğrultdu və bizi qələbəyə ilhamlandırdı. Türkiyə, Pakistan**,** Əfqanıstan**,** Şimali Kipr Türk Cümhuriyyəti, Bosniya və Herseqovina**,** Gürcüstan, Ukrayna, İsrail, Macarıstan və Moldova Azərbaycana dəstək nümayiş etdirdilər.

2020-ci il sentyabrın 27-də başlanan və noyabrın 10-da başa çatan 44 günlük II Qarabağ – Vətən müharibəsində qələbənin qazanılmasında qardaş Türkiyənin böyük və əvəzolunmaz xidməti vardır. Türkiyənin dünya ictimaiyyətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ədalətli mövqe nümayiş etdirməyə çağırması, ikili standartların yaratdığı problemləri aradan qaldırmağa çalışması, rəsmi Ankaranın təcavüzkar dövlətlə sərhədlərini bağlaması ilə Türkiyə Azərbaycanın mövqeyini təkcə sözdə yox, həm də əməli işdə dəstəkləyən bir dövlət olduğunu ortaya qoydu. Ən böyük dəstək Türkiyə xalqından da gəldi. Türkün türkdən başqa dostu olmadığını tarixin sınaqlarından çıxaran türk qardaşlarımız "Dağlıq Qarabağda savaş başlayarsa, düşünmədən gedəcəyik" dedilər. Əgər Azərbaycanın torpağı işğal olunubsa, xalqının nümayəndələri qaçqın və köçkün olublarsa, bu, istər Türkiyə, istərsə digər türk ölkələrində yaşayan hər bir türkü narahat etməlidir, incitməlidir, hətta yatmağa belə qoymamalıdır**.** Bu savaşın gedişi zamanı biz Türkiyədən başqa, Qazaxıstan, Qırğızıstan, Özbəkistandan da Azərbaycana qarşı çox məhəbbət və hörmətini ifadə edən adamlar gördük**.**

Ermənistanın Azərbaycan Respublikası ərazilərinə yeni hücumu bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bildirən Türkiyə Cümhuriyyəti Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələrdəki səhifəsində türk millətinin hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olduğunu qeyd etdi. Türkiyə

Böyük Millət Məclisinin sədri Mustafa Şentop, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Ermənistanın cəbhə xəttində törətdiyi genişmiqyaslı təxribatlarla bağlı açıqlamasında Türkiyə Cümhuriyyətinin bütün gücü ilə Azərbaycanın yanında olmaqda davam edəcəyini bildirdilər.

Türkiyə Cümhuriyyətinin Milli Müdafiə naziri Hulusi Akar Ermənistanın cəbhə xəttində törətdiyi genişmiqyaslı təxribatlarla bağlı açıqlamasında bildirdi ki, :"*Sülh yolu ilə hələ çağırış edənlər, "dərhal atəşkəs" istəyənlər, dialoqu indi xatırlayanlar, Azərbaycan ərazisinin 20 faizini, o cümlədən Dağlıq Qarabağ işğal altında olarkən, Xocalıda minlərlə günahsız insanı vəhşicəsinə, haqq-hüquq tanımadan uşaq, qadın və yaşlı demədən qətlə yetirilərkən, 30 ildir milyonlarla insan evindən, yurdundan didərgin düşərkən harada idilər? Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər "bir millət, iki dövlət" prinsipinə əsaslanır. Kədərdə də, sevincdə də daim bərabərik. Bu gün doğma torpaqlarını qorumaqda azərbaycanlı qardaşlarımızın yanındayıq. Ermənistan dərhal hücumları dayandırmalı, xaricdən gətirdiyi muzdluları, terrorçuları geri göndərməli və Azərbaycanın işğal edilmiş torpaqlarını boşaltmalıdır. Beləliklə, atəşkəs, sülh və sabitlik təmin edilməlidir*" (Azərbaycan qəzeti, 2 oktyabr 2020). Türkiyə Cümhuriyyəti Xarici İşlər naziri Mövlud Çavuşoğlu sosial şəbəkələrdəki paylaşımında yazmışdı ki, Ermənistan yenə də həddini aşıb. Bu dəfə cavabını meydanda alır. Meydanda və masa arxasında Can Azərbaycanla birlikdəyik (Azərbaycan qəzeti, 2 oktyabr 2020). AzərTAc-ın xüsusi müxbiri Günel Məlikova İstanbuldan xəbər verirdi ki, Türkiyənin Xarici İşlər nazirinin müavini Yavuz Selim Kıran sosial şəbəkələrdəki paylaşımında vurğulayıb ki, işğalçı Ermənistanın təxribat xarakterli hücumları onun çarəsizliyinin göstəricisidir. Biz Azərbaycanla bir millət, iki dövlətik, amma yeri gələndə "Bir millət, bir dövlət" anlayışı ilə bir-birimizə bağlanırıq. Türkiyə Cümhuriyyətinin Ədliyyə naziri Əbdülhəmid Gül təcavüzkar Ermənistanın hərbi təxribatları nəticəsində yaranmış gərgin vəziyyətlə bağlı sosial şəbəkədəki paylaşımında Türkiyənin dost və qardaş Azərbaycana hər cür dəstək verməyə hazır olduğunu bildirdi. Türk Şurasının Baş katibi Bağdad Amreyev Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindəki hərbi qarşıdurmadan dərin narahatlığını bildirərək Türk Şurasını Azərbaycanın ərazi bütövlüyünün və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını qorumağı, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb etdi (Azərbaycan qəzeti, 29 oktyabr 2020). Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Türkiyə Böyük Millət Məclisinin Azərbaycana qardaşlıq münasibətinin əbədiyyətə qədər davam edəcəyini vurğulayaraq Ermənistan silahlı qüvvələrinin qanunazidd davranışını 2020-ci il 12 iyul Tovuz hərbi təxribatının məntiqi davamı hesab etdi (Azərbaycan qəzeti, 2 oktyabr 2020). _Türkiyə

Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin (TÜRKSAM) sədri Sinan Oğan Ermənistanın Azərbaycan Respublikasına qarşı başladığı yeni təxribat xarakterli hücumu şiddətlə qınadı.

**3.Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və 44 günlük Vətən müharibəsi Türkiyə mediasında**

Türkiyə Cümhuriyyərinin aparıcı televiziya kanalları və müxbirləri Vətən müharibəsi gedişində Azərbaycanını döyüş bölgələrində olaraq cəbhədə güdən döyüşləri dünya ictimaiyyətinə çatdırdılar. *Oktyabrın 5-də Türkiyənin "TRT Haber*" televiziya kanalı İlham Əliyevdən müsahibə alaraq Ermənistanın hərbi-siyasi rəhbərliyinin müharibənin gedişində dünya ictimaiyyətini aldatmaq cəhdlərinə, atəşkəs rejiminin təmin edilməsi, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş torpaqlardan çıxarılması məsələlərinə aydınlıq gətirilməsi baxımından fərqlənirdi. Azərbaycan Prezidenti müsahibəsində atəşkəs çağırışlarına aydınlıq gətirərək bildirdi ki, atəşkəs müəyyən şərtlərlə təmin edilməli, bizə çox ciddi zəmanət verilməli, beynəlxalq vasitəçilər zəmanətləri təsdiq etməlidirlər. Ermənistanın Baş nazirinin bir il bundan əvvəl səsləndirdiyi "Qarabağ Ermənistandır" iddiası əvəzinə "Qarabağ Ermənistan deyildir" bildirməli, Azərbaycan xalqından üzr istəməli, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməli və Ermənistan işğal edilmiş torpaqlardan çıxmaq qrafikini verməlidir (Azərbaycan ordusu qəzeti, 8 oktyabr 2020). Prezident İlham Əliyev müsahibəsində müxbirin "*Qarşıdurmalar daha böyük müharibəyə, böyük regional böhrana yol aça bilərmi? Narahatlığınız varmı*? sualına cavabında Azərbaycan Respublikasının Ermənistan Respublikasında heç bir hərbi hədəfi olmadığını, Ermənistanın isə oktyabrın 4-də Gəncəni raket atəşinə tutduğunu, Mingəçevir şəhərinə atılan mərmilərdən birinin isə İstilik Elektrik Stansiyasının yanına düşdüyünü xatırladaraq Ermənistanın Azərbaycanı təxribata cəlb etdiyini, Ermənistana zərbələr endirməsinə nail olmaqla Azərbaycanın Ermənistana hücum etməsini dünyaya yaymaqla cəbhədəki vəziyyəti təhrif etməyə çalışdığını müxbirə bildirmişdi (Azərbaycan ordusu qəzeti 8 oktyabr 2020).

Müsahibənin gedişində maraqlı anlardan biri də müxbirin Fransa Prezidenti E.Makronla əlaqədar "*Fransa Prezidenti Makronun üzr istəməyə dəvət etdiniz*" sualı oldu. Məsələyə aydınlıq gətirən İlham Əliyev bildirmişdi ki, Makron Azərbaycanın Türkiyə ilə birlikdə bölgəyə terrorçular gətirdiyini iddia etmişdir. Ondan sonra bir açıqlamasında demişdir ki, Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və buna biz icazə vermərik. İlham Əliyev müxbirdən soruşmuşdu: Dağlıq Qarabağ Azərbaycan torpağıdır, biz öz dövlət torpağımızı fəth edə bilərikmi? Yəni həmsədr bilmir ki, bu torpaqlarda ermənilər qanunsuz olaraq oturub, bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerlə-yeksan ediblər. Ona

görə də "*Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz bunu icazə verməri*k" sözləri qəbuledilməzdir (Azərbaycan ordusu qəzeti, 8 oktyabr 2020). Məqalədə Ermənistanın öz məqsədləri üçün terrorçu və muzdlulardan istifadə etdiyinin ilk hal olmadığı, ötən əsrin 90-cı illərində Dağlıq Qarabağda müharibə zamanı bunun təkrar olunduğu, kürdlərin hələ sovetlər dönəmində alətə çevrildiyi qeyd edilir. Diqqətə çatdırılır ki, hazırkı Ermənistan hökuməti Azərbaycana qarşı savaş tonuna üstünlük verir və ölkə daxili siyasət, eləcə də səhiyyə və iqtisadi böhrandan irəli gələn hesablamalar əsasında danışıqlar prosesini əngəlləyir. Erməni hökuməti prinsip etibarilə razılaşdırılmış ATƏT çərçivəsində danışıqlara qoşulmaqdan imtina etməklə kifayətlənmir, o, eyni zamanda, sülh danışıqlarının yenidən başlamasını tələb edir. Erməni əhalisi getdikcə öz övladlarını cəbhəyə göndərməkdən imtina etdiyinə görə, hesab olunur ki, Ermənistan hökumətinin terrorçu qruplardan olan döyüşçülərdən istifadə etməklə öz vətəndaşları arasında insan itkisini minimuma salmaq qərarına gəlib. Baş nazir Nikol Paşinyan hətta ölkədə xalq milisi təşəbbüsü barədə elan verib və Burkina Faso kimi dünyanın böhranlarla silkələnən regionlarında bunun üçün təhlükəli nümunələri görmək olar (https://ordu.az/az/news/172895/). Məqalədə Ermənistan silahlı qüvvələrinin Tovuz rayonuna hücumu xatırladılaraq Dağlıq Qarabağ regionunun getdikcə hərbiləşdirilməsi, həmçinin Yaxın Şərqdəki yarımhərbi qruplardan muzdluların iştirakı münaqişənin beynəlxalq miqyas almasına və regional güclərin çətin vəziyyətə düşməsinə, Ermənistanın təhlükəli hərəkətləri Azərbaycan və Avropa üçün strateji əhəmiyyət daşıyan regionda sabitliyin daha da pozulmasına səbəb ola biləcəyi, Azərbaycan neftinin və qazının, eləcə də digər ixrac məhsullarının enerji və nəqliyyat bağlantıları ilə Gürcüstan, Türkiyə və Avropaya nəqli, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu kimi böyük infrastruk-turlarını təhlükə altına almaqla Ermənistan Avropanın enerji və nəqliyyat təhlükəsizliyinə ciddi təhdidlər yaratdığı bildirilir (https://ordu.az/az/news/172895/). Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibəsində müxbirin Türkiyənin mövqeyinə, Ermənistanın enerji təhlükəsizliyinə qarşı təxribatlarına, Ermənistanın hücuma başladığı gün-dən erməni lobbisinin Azərbaycana qarşı qara təbliğatına faktlarla cavab vermişdir (Azərbaycan ordusu qəzeti, 8 oktyabr 2020). Oktyabrın 5-də Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibəsində səsləndirdiyi "*müharibə bölgəsindən uzaqda yerləşən yaşayış məntəqələrinə Ermənistan ərazisindən raket atılması"* Azərbaycan Respublikasının Baş Prokurorluğunun keçirdiyi brifinqdə də xatırladıldı (https://azertag.az/). Brifinqdə Günay Səlimzadə məlumat verərək bildirmişdi ki, Azərbaycan Respublikasının işğal olunmuş Qarabağ bölgəsində yaradılmış qondarma rejimin qondarma başçısı Araik Arutyunyan oktyabrın 4-də özünün "Facebook" səhifəsində Gəncə şəhərinin

mülki əhalisinin sıx yaşadığı məntəqələrinin atəşə tutulması barədə göstəriş verdiyini açıqlayıb. Qeyd olunub ki, döyüş əməliyyatlarının aparıldığı bölgədən 100 km-dən çox uzaqda yerləşən Mingəçevir şəhərinin mülki əhalisinin sıx yaşadığı məntəqələr raket atəşinə tutulub. Atılmış 3 raketdən 2-si partlamayıb. Həmin raketlərdən biri Azərbaycan İstilik Elektrik stansiyasının qarşısında, digəri yaşayış məntəqələrinin yaxınlığına düşüb. Üçüncü raketin partlaması nəticəsində 5 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarəti alıb. G.Səlimzadə brifinq iştirakçılarına məlumat verib ki, ümumilikdə artilleriya atəşi nəticəsində xəsarət alan 121 mülki şəxsin 30-u qadın, 7-si uşaqdır (https://modern). Baş Prokurorluğun oktyabrın 4-də saat 12 radələrində Ermənistan silahlı qüvvələrinin Abşeron və Xızı rayonlarına raket atılması barədə məlumatda bildirilirdi ki, Ermənistanın hərbi siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyası və onun Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla mühüm dağıntılara səbəb olmuşdur. Xızı rayonunun Türkoba və Abşeron rayonunun Pirəkəşkül kəndlərinin yaşayış məntəqələri və silahsızlaşdırılmış zavodları, habelə hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən obyektlər, o cümlədən mülki əhali hədəfə alınmaqla böyük dağıdıcı qüvvəyə malik 2 ədəd uzun mənzilli ballistik raketdən istifadə edilərək, həmin kəndlər istiqamətində intensiv atəşlər açılmış, bütün bunlar Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırmaqla aparılıb və terrorçuluq cinayəti törədilib. Bu faktla bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb (Xalq qəzeti, 6 oktyabr 2020). Prezident İlham Əliyevin *oktyabrın 12-də Türkiyənin "Haber Qlobal*" televiziya kanalına müsahibəsi Türkiyə-Azərbaycan münasibətlərinə aydınlıq gətirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycan Prezidenti əvvəlki müsahibələrində məsələyə aydınlıq gətirsə də, aparıcının suallarını cavablandırarkən bildirib ki, Türkiyə bu məsələnin siyasi yolla həll olunmasında fəal rol oynamalıdır.

Prezident İlham Əliyev "TRT Haber" telekanalına müsahibəsində atəşkəs çağırışlarına cavab olaraq deyib:

"*Ermənistanın Baş naziri bir il əvvəl bizim torpaqlarımızda demişdi ki, Qarabağ Ermənistandır. O, Azərbaycan xalqından üzr istəməlidir. ... İkincisi, o, deməlidir ki, Qarabağ Ermənistan deyildir. Üçüncüsü, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir. Dördüncüsü, bəyan etməlidir ki, hansı bölgələrdən Ermənistan silahlı qüvvələri çıxır*" (Azərbaycan ordusu qəzeti, 15 oktyabr 2020).

Oktyabrın 12-də Türkiyənin "Haber Qlobal" televiziya kanalına müsahibəsində atəşkəs rejiminə dair suallara aydınlıq gətirilməsinə baxmayaraq müxbirin yenə də atəşkəsin

pozulmasına dair ikibaşlı sual verəndə Azərbaycan Prezidenti bundan əvvəl televiziya kanallarına verdiyi müsahibələrdəki fikirlərini təkrar edərək bildirmişdi ki, oktyabrın 14-də səhər saat 7-dən 9-a qədər Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam şəhərlərini 150 dəfədən çox artilleriya atəşinə tutmuşlar. Əfsuslar olsun ki, Tərtərdə mülki şəxslərdən 1 nəfər həlak olmuşdur. Müxbirin "Azərbaycan da atəşi davam etdirir elə deyilmi? *Dünya Dağlıq Qarabağdakı Xankəndində mülki şəxslərin artilleriya atəşinə tutulması görüntülərini görüb*" sualına cavabda İlham Əliyev hədəflərin hərbi obyektlər olduğunu vurğuladı. Prezidentin cavabından təsirlənən müxbir məsələnin mahiyyətini açmaq əvəzinə Qabaqdakı kilsənin bombardman edilməsini ortaya atdı.

Prezident müxbirə xatırlatdı ki, Azərbaycanda dini tolerantlıq çox yüksək səviyyədədir. Bunu aparıcı beynəlxalq təşkilatlar, o cümlədən BMT-də qeyd etmişdir...Vatikanın rəhbəri, Roma Papası Fransisko Bakıya səfəri zamanı aşıq şəkildə demişdir ki, Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun səviyyəsi çox yüksəkdir... Bakının mərkəzində bərpa edilmiş erməni kilsəsi vardır. Bu kilsədə erməni dilində 5000-dən artıq kitab saxlanılır. Ermənilər isə Ağdamın, Füzulinin və Şuşanın məscidlərində donuz, inək saxlayırlar. Bununla onlar müsəlmanların hisslərini təhqir edirlər.

Prezident İlham Əliyevin oktyabrın 12-də Türkiyənin "Haber Qlobal" televiziya kanalına müsahibəsində əks-hücum əməliyyatlarında Türkiyənin hərbi iştirakı məsələsinə aydınlıq gətirmişdi. Buna baxmayaraq "France 24"-ün müxbiri Türkiyənin, o cümlədən F-16-ların müharibədə iştirakı, əldə olunan uğurlarda Azərbaycan Ordusunun rolunun azaldılması, nəhayət Ermənistanın NATO ordusu ilə vuruşduğunu qabartmaq istədi. İlham Əliyev faktlarla müsahibini susduraraq Türkiyə-Azərbaycan hərbi təlimlərinin mahiyyətini, silah-sursatın tədarük edildiyi ölkələrin adlarını açıqlayaraq bir daha vurğuladı ki, Azərbaycan müasir silahları öz pulu ilə alır. Azərbaycan Prezidenti müxbirə xatırlatdı ki, Türkiyədən əldə olunan dronlar vasitəsilə Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikası məhv edilmişdir. Prezident sual etmişdi ki, Ermənistan bu avadanlığı almaq üçün pulu haradan tapıb və suala sualla cavab verərək "çox güman ki, onu pulsuz əldə ediblər" söylədi. Bununla da, Azərbaycan Prezidenti Azərbaycan Ordusunun qələbələrini informasiya savaşında da uğurla təmin edirdi.

Türkiyənin nüfuzlu media orqanları cəbhədə baş verən prosesləri geniş işıqlandırırdılar. Anadolu, İHA, DHA agentlikləri, TRT HABER, TÜRK HABER, A HABER, NTV və s. telekanallar, o cümlədən ölkənin aparıcı qəzetləri və xəbər portalları Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən başlayaraq həyata keçirdiyi növbəti hərbi təxribatlar və hərbi qarşıdurma, cəbhə bölgəsindəki vəziyyət barədə türkdilli tamaşaçıları və oxucuları məlumatlandırdı.

"Yeni Akit" qəzetinin müxbiri Mehmet Koçak "*Məqsədləri Azərbaycan Ordusunun irəliləməsini dayandırmaqdır*" sərlövhəli məqalə ilə çıxış edib. Məqalədə Azərbaycan ərazilərinin 20 faizinin 27 ildir, Ermənistanın işğalı altında saxlanıldığı vurğulanır. Qeyd edilir ki, bu illər ərzində susan ATƏT-in Minsk qrupu yarıtmaz siyasətlə işğalın davam etməsinə rəvac verib. Müəllif bildirir ki, çətin duruma düşmüş Paşinyan bir tərəfdən Rusiya, digər tərəfdən ABŞ rəhbərləri ilə əlaqə saxlamaqla, vəziyyətdən çıxmağa çalışır. *"Çünki böyük itkilər verməyə davam edən Ermənistanın kömək istəməkdən başqa çarəsi qalmayıb. Əgər güvəndiyi ölkələr ona sahib çıxmasa, yaxın vaxtda işğal altında olan ərazilərdə çox böyük itkilər verərək geri çəkilməli olacaqlar.*" Məqalədə Azərbaycanın irəli sürdüyü şərt yerinə yetirilmədən - işğalçı ordunun Azərbaycan ərazisini tərk etmədən, azərbaycanlı məcburi köçkünlər öz evlərinə qayıtmadan danışıqlar aparıla bilməyəcəyi vurğulanır.

Məqalədə PKK silahlı terrorçularının Azərbaycanın işğal altında olan ərazilərində döyüşməsinə münasibət bildirən müəllif sübut kimi, Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətinin ictimaiyyətə açıqladığı radio danışıqlarını nümunə gətirir (Xalq qəzeti, 10 oktyabr 2020). Əsgərə məktub" layihəsi Türkiyə mediasının diqqət mərkəzində idi. Türkiyənin "Haber Global", "CNN Türk", "A Haber" telekanalları "ASAN Könüllüləri" Təşkilatının "Əsgərə məktub" layihəsini əks etdirən xüsusi reportajlar hazırladılar.Azərbaycan Prezidentinin dünya televiziya kanallarına, ayrı-ayrı informasiya agentliklərinə müsahibələri, Azərbaycan xalqına müraciətləri təkcə Azərbaycanda deyil, dünyanın bütün ölkələrində diqqətlə izlənilir və reaksiya verilirdi. Kütləvi informasiya vasitələri yazırdılar ki, dünyanın müxtəlif yerlərindən Azərbaycan Prezidentinə məktublar göndərilməsi davam edirdi.

Belə dəstək bəyanatlarından biri də Türkiyənin vətəndaş cəmiyyəti təşkilatından gəlmişdi (https://azertag. az/xeber/). Türkiyə vətəndaş cəmiyyəti təşkilatının qəbul etdiyi bəyanatda deyilirdi: "*Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağ və ətrafındakı rayonların işğalına 32 ildir sözdə sülh və həll istəyən türkə düşmən dövlətlər tərəfindən laqeydlik göstərilir və bölgədəki işğalçı qüvvələrin, yəni ermənilərin namərdliyinə hər dəfə göz yumulub. Ancaq son nəticədə başda Azərbaycan hökuməti olmaqla, xalqımız və dövlətimiz sülhün və ataşkəsin artıq heç bir yaraya məlhəm olmadığını, əksinə qaysaq bağlamış yaralarımızın daha da dərinləşdiyini anlayıb.*

*Azərbaycan Respublikası öz problemlərini özü həll edəcək və işğal olunmuş torpaqlarının hamısını hərbi əməliyyatlarla azad edəcək, əzmə və gücə malik olduğunu göstərəcəkdir. Biz Azərbaycan dövlətinin eyni millətin övladları olan Azərbaycan türklərini sevir və Azərbaycan Ordusuna, milli dəyərlərə sahib çıxan bütün vətəndaşlarımıza, Azərbaycan hökumətinə və Azərbaycan Respublikasının Prezidentinə etibarımızın və dəstəyimizin tam olduğunu bildiririk.*

*Tarixi döyüş meydanlarında qurduqlarını mədəniyyət sahəsində yaşadan türklər Dağlıq Qarabağı həm döyüş meydanında, həm də danışıqlar masasında qazanacaqdır. Azərbaycan dövlətinə, onun rəhbərinə səslənirik: Hər an əmrinizdəyik. Sərhədlərdən kənardakı qardaşlarımız da yanınızdadır. Yalnız irəli. Qəlbimiz sizinlədir Azərbaycan, hamımız Azərbaycanlıyıq, hamımız Qarabağlıyıq*!" (Xalq qəzeti, 22 oktyabr 2020). Bəyanatı 73 təşkilat imzalamışdır.

Türkiyənin 160 qazi və şəhid ailəsi üzvlərinin imza atdığı Azərbaycana dəstək bəyanatında deyilirdi:

"*Biz Türkiyənin müxtəlif şəhərlərində yaşayan Türkiyə dövlətinin yaşaması üçün gözünü, qolunu, ayağını və bədəninin bir çox üzvünü itirən qazilər və qəhrəman övladlarını, qardaşlarını şəhid verən minlərcə Vətən, millət fədaisiyik.*

*Minlərlə insan adından 160 qazi və şəhid ailəsi üzvü olaraq bildiririk ki, Azərbaycanın tarixi ərazilәri olan Dağlıq Qarabağın və ətrafındakı rayonların işğalına 32 ildir sözdə sülh və həll istəyən türkə düşmən dövlətlər tərəfindən laqeydlik göstərilib və bölgədəki işğalçı qüvvələrin, yəni ermənilərin namərdliyinə hər dəfə göz yumulub. Ancaq son nəticədə başda Azərbaycan hökuməti olmaqla, xalqımız və dost dövlətlərimiz sülhün və atəşkəsin artıq heç bir yaraya məlhəm olmadığını, əksinə, qaysaq bağlamış yaralarımızın daha da dərinləşdiyini anlayıb.Azərbaycan Respublikası öz problemini özü həll edəcək və işğal olunmuş torpaqlarının hamısını hərbi əməliyyatlarla azad edəcək əzmə və gücə malik olduğunu göstərdi. Biz Azərbaycan dövlətini və eyni millətin övladları olan Azərbaycan türklərini sevir, Azərbaycan Ordusuna, milli dəyərlərə sahib çıxan bütün vətəndaşlarımıza, Azərbaycan hökumətinə və Azərbaycan Prezidentinə etibarımızın və dəstəyimizin tam olduğunu bildiririk.*

*Azərbaycanın tək olmadığını, türk dövləti və xalqının qardaş hesab etdiyi ölkənizin hər zaman olduğu kimi, bu gün də yanında olduğunu, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü hədəfə alan bütün təxribatlarına və təhrikedici fəaliyyətlərinə qarşı çıxdığımızı, bütün gücümüzlə Azərbaycanın Dağlıq Qarabağın işğalına son qoyması üçün apardığı Vətən müharibəsini və milli mübarizəsini dəstəklədiyimizi bəyan edirik.*

*Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin işğalçı Ermənistana qarşı mübarizədə qazandığı hər qələbə türk xalqı və biz qazilər tərəfindən böyük sevinc və coşqun ilə qarşılanır. Bu baxımdan türk dünyası coğrafiyasının mədəniyyət, mənəviyyat və vətən dəyərlərinin gələcək nəslin öz tarixinə və mədəniyyətinə sahib çıxması baxımından önəmli olduğunu düşünürük.*

*Türkiyə və Azərbaycan xalqlarının əvvəldən sonadək nümayiş etdirdiyi həmrəylik nümunəsi kimi, biz qazilər də Azərbaycanın Vətən müharibəsində eyni cəbhədə olduğumuzu beynəlxalq ictimaiyyətə çatdırırıq.*

*Tarixi döyüş meydanlarında quraraq, mədəniyyət sahəsində yaşadan xalq Dağlıq Qarabağı həm döyüş meydanında, həm də danışıqlar masasında qazanacaqdır. Azərbaycan dövlətinə və onun rəhbərlərinə səslənirik: Hər an əmrinizdəyik. Sərhədlərdən kənardakı qardaşlarınız da yanınızdadır. Yalnız irəli!*

*Qəlbimiz səninlədir, Azərbaycan! Hamımız Azərbaycanıq, hamımız Qarabağıq*! (https://azertag.az/xeber/Turkiye_qazileri_ve_sehid_ailelerinin_uzvleri_Azerbaycana_destek_beyanati_qebul_edibler-1622401).

Rusiya ərazisində yaşayan türk dilli xalqlar da Azərbaycan xalqının mübarizəsini dəstəklədi. Rusiyada yaşayan tatarlar, çuvaşlar, başqırdlar, ümumilikdə türkmənşəli xalqlar 44 günlük savaşda Azərbaycanın mövqeyini dəstəklədiklərini açıq-aşkar bildirdilər. Bu mənəvi dəstək yüz illər boyu Azərbaycan xalqının yaddaşında və xatirəsində qalacaq (https://www.trt.net.tr/azerbaycan/proqram/2021/06/24/rdoganin-az-rbaycan-s-f-rinin-h-miyy-ti-1663510). Dünyanın müxtəlif şəhərlərində Azərbaycana dəstək mitinqləri keçirilirdi. Dəstək mitiqləri oktyabrın 6-da Türkiyə Cümhuriyyətinin İstanbul və şəhərlərində də keçirilmişdir. Ermənistanın Azərbaycan Respublikasının mülki yaşayış məntəqələrinə qarşı terror aktlarına dünyanın müxtəlif ölkələrində etirazlar başlamışdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də İtaliyanın "La Republika" qəzetinin müxbirinə verdiyi müsahibədə müxbirin rəsmi Ankaranın Azərbaycan Respublikasına dəstəyi haqqında sualına aydınlıq gətirərək digər müsahibələrdə qeyd etdiyini təkrarlayaraq qəti şəkildə bildirdi ki, Türkiyə dövləti və xalqı Azərbaycan Respublikasına siyasi və mənəvi dəstəyini davam etdirir.

44 günlük müharibə günlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın müxtəlif ölkələrinin dövlət və hökumət başçıları, o cümlədəh Türkiyə Cümhuriyyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefonla danışmışdır.Telefon söhbətləri zamanı dövlət başçısı sentyabrın 27-də Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribat, Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrinin Ermənistanın ağır artilleriyadan atəşə tutması nəticəsində mülki şəxslərin və hərbi qulluqçuların həlak olması və buna cavab kimi Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları həyata keçirdiyi barədə qarşı tərəfə məlumat verib. Xarici dövlətlərin rəhbərləri ilə aparılan telefon danışıqlarında Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın məqsədi qan tökmək və ərazi qəsb etmək deyil, düşməni ədalətli sülhə məcbur etməkdir. Azərbaycan heç zaman sülh danışıqlarından, dialoq təkliflərindən yayınmamış, hətta

Azərbaycan ərazilərini işğaldan azad etmək üçün aparılan uğurlu əməliyyatlar zamanı humanitar atəşkəs çağırışlarına qarşılıq verib, nəticədə 3 dəfə atəşkəs rejimi tətbiq olunub.

Oktyabrın 20-də Azərbaycan Respublikasının Milli Məclisində çıxışında Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop da Ermənistan Ordusunun Azərbaycan Respublikasının işğal edilmiş torpaqlarından çıxmalı olduğunu və məsələnin həlli olmadığını vurğulayaraq bəzi dövlətlərin Azərbaycan xalqının bu haqq işində nahaq günahlandırıldığını, Azərbaycan dövlətinin beynəlxalq hüquqa əsasən öz torpaqlarını işğaldan azad etdiyini bildirərək heç kimin Azərbaycan xalqını və dövlətini bu haqq işində günahlandırmağa haqqı olmadığını və Türkiyənin sona qədər Azərbaycanın yanında olduğunu təkrar etmişdir (Azərbaycan ordusu qəzeti, 21 oktyabr 2020). II Qarabağ müharibəsi-Vətən müharibəsi günlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Xarici İşlər nazirliyinin, Türkiyə Böyük Millət Məclisi sədrinin, Türkiyənin keçmiş Baş naziri Binəli Yıldırımın və Rusiyanın Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətlərini, Türkiyənin Baş Ombudsmanın, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş Katibini, Türkiyənin Odalar və Borsalar Birliyinin Prezidentini, Özbəkistanın və Qırğızıstanın Ticarət və Sənaye Palatasının sədrlərini, Türkiyənin Xarici İşlər və Müdafiə nazirlərini, Milli Kəşfiyyat İdarəsinin rəisini və Rusiyanın Xarici İşlər Nazirini qəbul etmişdir (Zəfər Yolu, Qarabağ savaşından Şuşa bəyannaməsinədək, 2021). Şuşa şəhərinin azad edilməsi hərbi-mənəvi dəyərinə və çətinlik səviyyəsinə görə Vətən müharibəsində aparılan döyüşlərin zirvəsi sayıla bilər. Bu məsələnin hərbi-mənəvi dəyəri onda idi ki, Şuşanın işğaldan azad edilməsi Azərbaycanın mədəniyyət və mənəviyyat mərkəzinin yad nəfəslərdən, yad tapdaqlardan təmizlənməsi, bütün Qarabağa hakim olan bir şəhərin yenidən Vətənə qovuşması demək idi. Çətinlik səviyyəsi isə coğrafi və relyef baxımından bu şəhərin müdafiə imkanlarının son dərəcə böyük olması ilə bağlı idi. Şuşa şəhəri təbii baxımdan alınmaz bir qala idi və bu təbii imkanların ermənilərin hərbi qüvvələri ilə birləşməsi şəhərin ordumuz tərəfindən işğaldan azad edilməsi imkanlarını xeyli çətinləşdirirdi. Ona görə Ermənistanın hərbi-siyasi rəhbərliyi bu şəhəri qoruyub işğal altında saxlaya biləcəklərinə böyük ümid bağlayırdı.

Noyabrın 8-də İlham Əliyevin Şuşa şəhərinin işğaldan azad edildiyini açıqlamasından sonra, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Kocaeli ilində kütləyə müraciət edərkən Azərbaycanı təbrik edərək bunun "işğal edilmiş torpaqların qalan hissəsinin də tezliklə azad ediləcəyinə işarə" olduğuna inandığını bildirmişdir. Türkiyə mühəndisi və müharibə zamanı Azərbaycan tərəfindən geniş şəkildə istifadə edilən "Bayraktar TB2" PUA-sının yaradıcısı olan Səlcuq Bayraqdar da Azərbaycan xalqına təbrik mesajı göndərmişdir. Həmçinin, Türkiyədə vitse-prezident Fuad Oqtay, Milli Müdafiə Nazirliyi, Cümhuriyyət Xalq Partiyasının sədri

Kamal Qılıncdaroğlu, iqtidardakı AK Partiyasının müşaviri Ömər Çelik və Prezident Administrasiyasının media və kommunikasiya rəhbəri Fəxrəddin Altun və prezidentin müşaviri İbrahim Kalın Şuşanın azad edilməsi münasibətilə Azərbaycan xalqını təbrik etmişdilər.

Noyabrın 10-da gecə imzalanmış Bəyanat Ermənistanın qeyd-şərtsiz təslim olduğunu dünyaya bəyan etməklə Azərbaycan "sivilizasiyaların toqquşmasından" qalib çıxdı, suverenliyi və ərazi bütövlüyünün toxunulmazlığı ilə bağlı BMT-nin tarixi qətnamələrini kağız üzərindən gerçək həyata köçürdü. Noyabrın 8-i – Şuşanın işğaldan azad edildiyi gün, noyabrın 10-u isə Vətən müharibəsinin başa çatdığı gün kimi Azərbaycan tarixinə düşdü.

**Nəticə**

Dekabrın 10-da Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsinə həsr olunmuş "Zəfər Paradı"nda ölkə ordusunun şəxsi heyəti və hərbi texnikası, habelə müzəffər ordumuzun düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi nümayiş etdirildi. "Zəfər Paradı"nda Şuşaya sancılmış Qələbə Bayrağını Azadlıq meydanına Şuşanın azad edilməsində müstəsna xidmətləri olan, Qarabağ xanlığının və Şuşa qalasının əsasını qoyan Pənahəli xan Cavanşirin nəslindən olan, Şuşa azad olunandan sonra şəhərin ilk komendantı təyin olunmuş general-mayor Zaur Məmmədov gətirdi. Paradda Azərbaycan və Türkiyə prezidentləri çıxış etdilər. Paradda ölkələrimiz arasındakı qardaşlığın rəmzinin bariz nümunəsi kimi Vətən müharibəsində şəhid olan azərbaycanlıların sayı qədər türk əsgərlərinin də iştirakı coşqunluqla qarşılandı. Zəfər paradı Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsinin 30 illik işğalına son qoyan Vətən müharibəsinin başa çatmasının rəmzi oldu.

Zəfər paradı Azərbaycan xalqı üçün qürur, şərəf, ləyaqət simvolu, ermənilər üçün məğlubiyyət, işğal siyasətinin acı ibrət dərsi olaraq tarixləşdi. Paradda qənimət kimi əldə olunan düşmənin hərbi texnikasının nümayişi Ermənistanın nə dərəcədə ağır məğlubiyyətə uğradığını göstərdi. Zəfər paradında bütün dünya, beynəlxalq ictimaiyyət "bir millət, iki dövlət" ifadəsinin real olaraq Azərbaycan-Türkiyə qardaşlığının, hərbi tərəfdaşlığının şahidi oldu. Zəfər paradı Azərbaycanda xalqla hakimiyyətin birliyini, vətəndaşların Azərbaycan Prezidenti, Müzəffər Azərbaycan ordusunun baş komandanı İlham Əliyevin apardığı siyasəti tam dəstəklədiklərini bir daha subut etdi. Təkcə Ermənistan deyil, həm də onun havadarlarına bir daha xatırladıldı ki, Azərbaycan xalqı onun ləyaqətinə, namus və qeyrətinə qıyanları, min illik torpağını hərraca qoyanları bağışlamır, ona görə də, ayağa qalxdı, 44 gündə mənfur qonşusuna minilliklərə bərabər dərs verdi.

Azərbaycan Silahlı Qüvvələrinin sentyabrın 27-də başlayan uğurlu əks-həmlə əməliyyatları nəticəsində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağkənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd

rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik, ümumilikdə noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd erməni daşnak terrorçularından azad edildi.

Azərbaycanın Ordusunun zəfəri ilə başa çatan 44 günlük müharibəsi geosiyasi reallıq yaratdı, 30 illik cəhdlərə rəğmən Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmağın mümkün olmayacağı dünyaya aydın oldu. Azərbaycan işğalda olan ərazilərinin üçdə ikisindən çoxunu güc yolu ilə azad etdi, düşmənə sarsıdıcı zərbə vurdu. Əldə olunan qələbə beynəlxalq hüquqdan kənara çıxmadan, müharibə qanunlarına uyğun aparılaraq, heç bir sanksiyaya, təzyiqə bəhanə vermədi. Hazırda işğaldan azad olunmuş torpaqlarımız yenidən abadlaşdırılır, nəhəng infrastruktur layihələri bu əraziləri də əhatə edir. 30 il daş-beton konstruksiyası quraşdırıb işğal etdiyi ərazilərdə quldurluq edən Ermənistanın "məğlubedilməz ordusu" Azərbaycan əsgərinin ilk addımında ordu fərarilik etdi, olduğu məkanı qoyub qaçdı. Ermənistan generalının etiraf etdiyi kimi, qaçmaq onun tək çıxış yolu, ölməmək üçün yeganə xilası idi.

2021-ci il 15-16 iyun tarixlərində Türkiyə Prezidentinin Azərbaycana səfəri, iki qardaş ölkə başçısının Şuşa Bəyannaməsini imzalaması böyük əhəmiyyət kəsb edir. İmza mərasimindən sonra iki ölkə başçısının ortaq mətbuat konfransında çıxışı, Rəcəb Tayyib Ərdoğanın Şuşada Türkiyə Baş Konsulluğunun açılacağını söyləməsi və *"Türkiyə olaraq yenidən bərpa və inşaat işlərində qardaşlarımıza hər cür dəstək veririk"* deməsi, Türkiyə və Azərbaycanın Qarabağı birlikdə tikəcəkləri haqqında bəyanatı, iyunun 16-da Türkiyə Prezidentinin Azərbaycan Milli Məclisində çıxışı, Qafqazda sülh və əmin-amanlıq üçün Türkiyə və Azərbaycanın bölgədə hərtərəfli əməkdaşlığa hazır olduqlarını vurğulaması, Şuşa Bəyannəmisinin hər iki ölkənin ratifikasiya etməsi Cənubi Qafqazda yeni geostrateji vəziyyətin formalaşdırılmasının işarəsi hesab olunmalıdır.

Azadlıq aşiqi, hər sətri ilə millətin vətən sevgisinə sevgi qatan, "*yoxdur millətimin imzası imzalar içində*" deyən Məhəmməd Hadi yaşasaydı millətinin imzasını həm dövlətlər içində, həm də xalqlar içində olduğunu göstərdi və yəqin edərdi ki, bu imzanı görənlər müvazinətlərini itirirlər. Bu imza XX əsrdə Mustafa Kamal Atatürk və Heydər Əliyev imzası, XXI əsrdə isə Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev imzasıdır. Bu imzanın arxasında Mustafa Kamal Atatürk və Heydər Əliyev dühası, Rəcəb Tayyib Ərdoğanın qətiyyəti və İlham Əliyevin "Dəmir yumruğu" dayanır. Türk dünyasının böyük şairi Bəxtiyar Vahabzadənin yazdığı kimi, bu imza bir ananın iki oğlu, bir amalın iki qolu, hər ikisi də ulu olan, dinimiz, dilimiz, ayımız, ilimiz bir olan Azərbaycan-Türkiyə birliyidir. Ulu öndər Heydər Əliyevin "*Bir millət, iki dövlət*" kəlamı

44 gündə bir daha özünün təsdiqini tapdı. Çünki Türkiyə ilə Azərbaycanın sevinci də, kədəri də birdir.

44 günlük müharibədə Azərbaycan xalqı hiss etdi və gördü ki, onun əsl dostu, qardaşı kimdir. Bu səbəbdən də, Azərbaycanın hər bir guşəsində birliyimizin əbədi rəmzi kimi Türkiyə və Azərbaycan bayraqları yanaşı dalğalanır (Xalq qəzeti, 15 avqust 2020).

**Ədəbiyyat**

(1997, 24 Ekim), Sabah Gazetesi.

(1997, 9 Eylül), Türkiye Gazetesi.

(1998, 17 Mayıs), Yeni Şafak Gazetesi.

(1998, 30 Ekim), Hürriyet Gazetesi.

(2000, 10 Eylül9, T.C.Resmi Gazete.

(2000, 18 Ekim), Akşam Gazetesi.

(2000, 20 Ekim), Hürriyet Gazetesi.
(2003, 19 Haziran), Akşam Gazetesi.

(2020 - ci il), *Azərbaycan qəzeti.*

(2020 - ci il), *Azərbaycan ordusu qəzeti.*

(2020-ci il), *Xalq qəzeti*.

(2021-ci il), Hərbi and qəzeti.

Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev'in, Türkiye – Azerbaycan dostluğuna ilişkin Genel Kurula hitaben konuşması. *T.B.M.M. Tutanak dergisi*. *53*. 69. birleşme. 9.2.1994, s.14-22.

Azərbaycan – Türkiyə əlaqələri. *Heydər Əliyev və Şərq*. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 137.
*Azərbaycan – Türkiyə: dostluq, qardaşlıq, strateji əməkdaşlıq.* Şərq-Qərb, 1997; Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (pa.edu.az)

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi (sonra-ARXİNA). 25.06.1993-21.04.1998. Qovluq №11, s.87-88.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdiril-məsi haqqında bəyannamə. 5 may 1997-ci il. *Müqavilələr toplusu*. I cild, s. 131-135.

Azərbaycan Respublikası Prezidentinin və Türkiyə Respublikası Prezidentinin birgə bəyanatı. 8 dekabr 1995-ci il. *Müqavilələr toplusu.* I cild, s. 48-53.

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə. *Müqavilələr toplusu.* I cild. Bakı, 2008, s.24-28.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəlin birgə bəyanatı. 8 dekabr 1995-ci il. Müstəqilliyimiz əbədidir. V kitab, s.157-161.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə ikinci rəsmi səfəri. 5-8 may 1997-ci il. *Heydər Əliyev və Şərq*. 6 cilddə. Türkiyə. II kitab, s. 364-502.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə doqquzuncu işgüzar səfəri. 17-19 noyabr 1999-cu il. Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, s.185-203.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə doqquzuncu işgüzar səfəri. 17-19 noyabr 1999-cu il. *Heydər Əliyev və Şərq*. 6 cilddə. Türkiyə. III kitab, s.185-203.

Əliyev, H.Ə. Türkiyə Böyük Millət Məclisində nitq. 9 fevral 1994-cü il.Müstəqilliyimiz əbədidir. I kitab, s.366;

Əliyev, H.Ə. Türkiyə Cümhuriyyətinə rəsmi səfərə yola düşərkən Binə hava limanında jurnalistlərə müsahibə. 8 fevral 1994-cü il. Müstəqilliyimiz əbədidir. I kitab, s.358.

Əliyev, İ.H. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı mərasimində iştirak. *İnkişaf – məqsədimizdir*. 83-cü kitab. Bakı, 2019, s.110.

Əliyev, İ.H. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı mərasimində iştirak. *İnkişaf – məqsədimizdir*. 83-cü kitab, 2019, s.110.

Əliyev, İ.H. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı mərasimində iştirak. *İnkişaf – məqsədimizdir*. 83-cü kitab. 2019, s.110.

Əliyev, İ.H. Sənədlərin imzalanması mərasimi. *İnkişaf – məqsədimizdir*. 86-cı kitab. 2019, s. 255-256.

Əliyev, İ.H. Sənədlərin imzalanması mərasimi. *İnkişaf – məqsədimizdir*. 86-cı kitab. 2019, s. 255-256.

Əliyev, İ.H. Türkiyə Prezidenti Əhməd Necdət Sezərin Azərbaycana rəsmi səfər. İnkişaf – məqsədimizdir. 16-cı kitab. 2014, s.92-93;
Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Tərtibçilər: Nazim İbrahimov, İbrahim Şükürov. 1994, s. 82.

Həsənov, Ə. (1998). *Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996).* Ə.Həsənov. Azərnəşr.

Korkmaz, T. (2023). Türkiye-Azerbaycan İlişkileri (1919-1938). *Atartürk Ansiklopedisi* (1-4). https://ataturkansiklopedisi.gov.tr/bilgi/turkiye

Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin Azərbaycan Respublikasına işgüzar səfəri. 18-19 oktyabr 1999-cu il. *Heydər Əliyev və Şərq*. 6 cilddə. Türkiyə. III kitab, s.116-134.

Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri. *Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi.* 2003. I hissə, s.3-4.

Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin Azərbaycana rəsmi səfəri. *Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi*. 2006. I hissə. Bakı, 2008, s.108-117.

*Zəfər Yolu: Qarabağ savaşından Şuşa bəyannaməsinədək.* (2021). Bakı.

https://azertag.az/xeber/Turkiye_vetendas_cemiyyeti_teskilatlari_

https://azertag.az/xeber/

.https: //ankara.mfa.gov.az/az/content/98/qarsiliqli-seferler

https://azertag.az/ xeber/

https://ordu.az/az/news/172895/

https://president. az/ articles/ 3959.

https://modern. az/az/ news/

https://president.az/articles/733.

https://ankara.mfa.gov.az/az/content/97/ikiterefli-siyasi-elaqeler

https://ankara.mfa.gov.az/az/content/98/qarsiliqli-seferler

https://www.trt.net.tr/ azerbaycan/

https://mod.gov.az/az/pre/21115.html